# Rafiq ƏLƏKBƏR - 60



*Hörmətli Rafiq Ələkbər!*

*Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.*

*Siz 25 aprel 1964-cü ildə Yardımlı rayonunun Alar kəndində anadan olmusunuz. 1981-ci ildə həmin kənddə orta məktəbi əla qiymətlərlə, 1992-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmisiniz.*

*Siz ədəbi yaradıcılığa keçən əsrin 80-ci illərində başlamısınız. 1999-cu ildə "Səndən ayrılanı, səndən küsəni" adlı ilk şeir kitabı, 2003-cü ildə "Mən Tanrı yolçusuyam", 2005-ci ildə "Ruhum əbədiyyətim", 2007-ci ildə "Eşq qəlbin ruhudur", şeir kitabları, 2007-ci ildə "Əsgər ac qalmayacaq" povesti, 2008-ci ildə "Seçilmiş əsərləri" şeirlər toplusu, 2011-ci ildə "İlahi nur", 2015-ci ildə "İrfan və eşq görüşləri", 2017-ci ildə Türkiyədə "İrfani aşk ", 2021-ci ildə "Savalanla üz-üzə" şeir kitablarınız çapdan çıxmışdır.*

*Azərbaycan Respublikasının müxtəlif ədəbi ödülləri, o cümlədən, "Qızıl Qələm", "Ustad sənətkar", "Araz" ədəbi mükafatlarına layiq görülmüsünüz. 2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz.*

*2017-ci ildə Türkiyədə çap edilən ədəbi əsərləriniz, o cümlədən, "İrfani aşk" şeirlər kitabınıza görə 2019-cu ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən Türk dünyası mədəniyyəti və ədəbiyyatında göstərdiyiniz xidmətlərə görə həmin Akademiyanın Fəxri doktoru seçilmiş və Elmlər Akademiyasının Beynəlxalq Qızıl Ulduz medalı ilə təltif edilmisiniz.*

*2021-ci ildə həmin Akademiya tərəfindən Türk dünyasının Fəxri ziyalısı seçilmiş və Atatürk Beynəlxalq mükafatı ilə təltif olunmusunuz.*

*2021-ci ildə çap olunmuş "Savalanla üz-üzə" kitabınıza görə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən 2022-ci ildə İlin şairi seçilmiş, dünya mədəniyyəti və ədəbiyyatına verdiyiniz töhfələrə görə Avropa Şərəf ordeni ilə təltif edilmisiniz.*

*Hörmətli Rafiq Ələkbər!*

*Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, yaradıcılıq uğurları arzulayırıq.*

***Azərbaycan Yazıçılar Birliyi***